*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (4) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 20.06.2023*
*Kabul tarihi |Accepted: 11.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*

**Mais Əmrahov**

*https://orcid.org/ 0000-0003-2504-3034*
*Professor, Azerbaijan National Academy of Sciences A.A. Head of the History Department of the History Institute of the Republic of Azerbaijan named after Bakikhanov, Azerbaijan, emrahov48@mail.ru*

*Atıf Künyesi | Citation Info*
Əmrahov, M. (2023). Azərbaycan Legionları: Saxtalaşdırılan Tarix və Reallıqlar. *Akademik Tarih ve Düşünce Dergisi, 10* (4), 1207-1228.

# Azərbaycan Legionları: Saxtalaşdırılan Tarix və Reallıqlar

**Xülasə**

II Dünya müharibəsinə dair yazılmış əsərlərdə müharibə dövründə Almaniya tərəfindən hərbi əsirlərdən, o cümlədən azərbaycanlılardan təşkil olunan legionlar, onların döyüş yolu və müharibədən sonrakı taleyi haqqında tam olmayan, əksər hallarda isə ziddiyyətli məlumatlar verilmişdir. Məqalədə Almaniya hərbi rəhbərliyi tərəfindən legionları yaradılması məqsədi, ‘‘Aslan”, ‘‘Dönməz” və ‘‘İgid” adlı azərbaycanlı batalyonlar haqqında qısa məlumat verilmiş, Avropa ölkələrində faşistlərə qarşı döyüşən legionerlərə Sovet dövlətinin münasibətinə faktlarla aydınlıq gətirilmişdir.

**Açar sözlər**: Müharibə, legion, legioner, Azərbaycan mühacirəti, Vətənə qayıdış

# Legions of Azerbaijan: Falsified History and Realities

**Abstract**

Incomplete, and in most cases contradictory information about the legions organized from military hostages by Germany and as well as from Azerbaijanis in war period, their way of battle and post-war fate were provided in the pieces written about II World war. In article, the goal of the formation of legions by the military administration of Germany, and also brief information about Azerbaijani battalions titled “Aslan”, “Donmaz” and “Igid” were provided

and clarification was made by facts to the attitude of Soviet state to the legionnaires fought against fascists in European states.

**Keywords**: war, legion, legionnaire, Azerbaijan emigration, Return to homeland

**Giriş**

İkinci Dünya müharibəsinin başa çatmasından bir çox onilliklər keçsə də, onun başlanma səbəbləri və gedişinə dair minlərlə kitab yazılmış və yazılmaqdadır. Araşdırmalar göstərir ki, SSRİ ilə müharibəyə başlayanadək Üçüncü Reyx rəhbərliyi dövlət məsələlərinə dair uzunmüddətli siyasət işləyib hazırlamış, Berlinə tabe olan marionet (oyuncaq) hökumətlər yaratmışlar. SSRİ-yə qarşı hazırlanan plan isə tamamilə fərqli idi. Sovet İttifaqına qarşı uzunmüddətli müharibə aparmaq üçün ehtiyatları olmayan alman hərbi komandanlığı SSRİ-nin çoxmillətli tərkibinə əsaslanaraq ,‘‘kommunizmə qarşı səlib yürüşü” ideologiyasına üstünlük verməklə reallaşdırmaq istəyirdi. Həm Ribbentrop, həm də Rozenberq Qafqaz mühacirətinin müxtəlif qrupları ilə işə üstünlük verirdilər (Mamuliya, 2012, s.386-387). Hitler 1941-ci ildə Baltik mənşəli Arno Şikedansı Qafqazın imperiya komissarı təyin etmişdi (Mamuliya, 2012, s. 381-382).

**1-Legionların yaradılması**

Müharibənin ilk illərində Sovet hərbi əsirlərinin, o cümlədən Mərkəzi Asiya və Qafqazdan olan sovet ordusu döyüşçülərinin sayı o qədər çox idi ki, onları saxlamaq Almaniya üçün ciddi sosial və iqtisadi problemə çevrilmişdi. Bu səbəbdən də, faşist Almaniyası SSRİ-nin bir sıra əraziləri işğal edildikdən və çox sayda hərbi əsirlər ələ keçirdikdən sonra Şərq legionlarının yaradılması məsələsi gündəmə gəlmişdi. Milli legionların formalaşdırılmasına və təhsilinə ümumi rəhbərliyi Şərq legionları hazırlıq Qərargahı (Autstellingsstabder Ostlegionen) həyata keçirirdi. 1943-cü il yanvarın 23-də bu qərargah Şərq legionları Qərargahı (Komando der Ostlegionen) adlandırılmışdı. Alman tədqiqatçısı P.Mühlen yazırdı ki, 1 noyabr 1941-ə qədər alman kamp-larında (əsir düşərgələrində) iki milyondan artıq sabiq Qızıl Ordu mənsubları toplanmışdı. Rozenberq onların sayının hətta 3,6 mioyon nəfər olduğunu göstərirdi (İbrahimli, 2012, s. 311).

1941-ci il iyul ayının 17-də Almaniyada işğal olunmuş Şərq vilayətləri üzrə nazirlik yaradıldı və ona Alfred Rozenberq rəhbər təyin olundu (İbrahimli, 2012, s. 313). Nazirliyin tərkibində yaradılan Leibbrandtın başçılıq etdiyi Siyasi idarə üç bölməyə ayrılırdı. İdarənin tərkibində olan Baş siyasi bölməyə Otto Brautiqam, Ukrayna bölməsinə Vilhelm Kinkel, Qafqaz bölməsinə isə professor Gerhard fon Mende başçılıq edirdi. Fon Mendenin rəhbərlik

etdiyi bölmə Qafqaz və Orta Asiya mühacirləri ilə məşğul olurdu. Azərbaycan hərbi əsirləri ilə işləmək üçün Məmməd Tuğay, ermənilərlə işləmək üçün Arutunyan qardaşları, gürcülərlə işləmək üçün Toqonidze, Şimali Qafqaz xalqlarından olan hərbi əsirlərlə işləmək üçün Əlixan Kantəmir komissiyanın işinə cəlb edilmişdi. 1941-ci ilin avqustunda əsirlərin milli mənsubluğa görə seçilməsinə və ayrı-ayrı düşərgələrdə yerləşdirilməsinə başlandı. 1941-ci ilin dekabrında Rozenberq legionların formalaşdırılması haqqında Hitlerə plan təqdim etdi. 1941-ci ilin noyabrında Ə. F. Düdənginski Hitlerə məktub yazaraq alman ordusunda Sovet İttifaqına və Böyük Britaniyaya qarşı döyüşmək fikrində olduğunu bildirdi (İbrahimli, 2012, s. 156)

Almaniya tərəfinə keçən azərbaycanlıların sayı 150 min, bütün türklərin və başqa qafqazlıların sayı isə milyona yaxın idi (Mədətov, 1965). Polşanın Yedlino şəhərində Qafqaz müsəlman legionu təsis edildi (İbrahimli, 2012, s. 316). 1942-ci ilin martında ,‘‘Berqman” ‘’Dağlı” Qafqaz taboru yaradıldı. Tabordakı əsgərlərin ümumi sayı 1.200 nəfərə çatırdı. Onların 900 nəfəri qafqazlı, 300 nəfəri almanlar idi. Taborun komandiri-rəhbəri vəzifəsinə Keniqsberq Universitetinin professoru, ‘‘Şərq məsələləri” üzrə mütəxəssis sayılan ober-leytenant T. Oberlander təyin edildi.

1942-ci ilin əvvəllərində legionların yaradılması məsələsi yenidən alman dairələrində müzakirə olunmağa başladı (Əkbər, 1951). Qərara alındı ki, yaradılan Türküstan legionuna türkmən, özbək, qazax, qırğız, qaraqalpaq və tacik, Qafqaz müsəlman legionuna isə azərbaycanlı, dağıstanlı, inquş, ləzgi və çeçen əsirləri daxil edilsin. Əlahiddə Gürcüstan və Ermənistan legionları da yaradılması planlaşdırıldı.

1942-ci ilin sonlarında Şərq cəbhəsində olan hər bir alman diviziyasının təkibində bir, yaxud iki şərq bölüyü, taboru vardı (Drobyazko, 1999, s. 7). Alman komandanlığının məlumatına görə 1943-cü ilin iyun ayına kimi sayı 80 min nəfər olan (Drobyazko, 1999, s. 7). 78 şərq taboru, 1 alay və 122 ayrıca bölük yaradıldı.

Almaniyada hərbi əsirlərdən istifadə əsasən iki formada həyata keçirilirdi. Onların içərisində kömək etmək istəyənlər-Hivilər adlandırılmışdı (Medinskiy, 2014, s. 309). Polkovnik Qraytaq-Lorinqofenin hazırladığı Əsasnamə 5000’ ə görə Hivilər and içdikdən sonra hissədə alman əsgərinə bərabər tutulurdu. Hivilər alman forması geyinirdilər (Əmrahov, 2009, s. 263).

İlk vaxtlar legionlara xaki rəngli alman hərbi forması və dərəcə nişanları vermək nəzərdə tutulmuşdu. Şərq legionlarında hərbi rütbələr 1942-ci il 2 iyun tarixli 1380 № li əmrlə daşınan vəzifələrə müvafiq olaraq 8 rütbə müəyyənləşdirilmişdi. Zabit vəzifəsini göstərən rütbələr paqonda nazik gümüşü xətlə verilirdi (Yaqublu, 2005, s. 126). Yaxalığın rəngi də müxtəlif idi. Açıq-göy-türküstanlılara, yaşıl qafqazlılara, moruğu gürcülərə, boz rəng isə ermənilərə aid idi (Əmrahov, 2009, s. 267). Şərq legionlarının hissələrində milli rəmzlərin əksi olan bayraqlardan

istifadəyə icazə verilsə də, Vermaxta məxsusluğu göstərilirdi (Yaqublu, 2005, s. 126). 1942-ci ilin yanvarında 1-ci Türküstan legionu formalaşdırıldı. Bu legionda müəyyən sayda azərbaycanlılar da vardı. Onun yaradıcısı və birinci komandiri mayor A.Mayer-Mader oldu və M. Maderin ölümündən sonra alay zəiflədi (Drobyazko, 1999, s. 14).

Almaniya tərəfində vuruşan azərbaycanlıların sayı 37.913 nəfər olmuşdur. Bunlardan 10.975 nəfəri 11 müstəqil hərbi piyada batalyon-larında, 927 nəfəri dağ-atıcı batalyonunda, 1.824 nəfəri 353-cü alman diviziyasının tərkibində, 2.990 nəfəri 162-ci türk diviziyasının tərkibindəki alayda, 3968 nəfəri legionlar yanında arxa piyada batalyonlarında, 4809 nəfəri fəhlə batalyonlarında, 2.851 nəfəri Osttürk SS birliyinin tərkibində, 1.090 nəfəri Qafqaz SS birliyinin tərkibində xidmət edirdi. Müxtəlif hissələrdə xidmət edən könüllülər də nəzərə alınarsa, bütövlükdə onların sayı 38.598 nəfərə çatırdı ki, onların da 169 nəfəri polkovnik rütbəsinə qədər yüksəlmiş zabitlər, 3.721 nəfəri isə kiçik rütbəli zabitlər idi (Həsənli, 2015, s. 297). Bundan əlavə 1944-cü ilin axırlarında 11 min azərbaycanlının əsir düşərgələrində saxlandığı, 275 nəfərin isə etibarsız könüllülər kimi düşərgələrə qaytarıldığı haqqında məlumatlar vardır (Həsənli, 2015, s. 224). “Almaniya Vermaxtında Qafqaz könüllü birlikləri haqqında” 1945-ci ilin mart ayının 25-də hazırlanmış hesabatda göstərilir ki, legionlarda və piyada batalyonlarda 13.600, tikinti və təchizat hissələrində 4.795 azərbaycanlı xidmət edirdi. Bundan əlavə alman ordusunda xidmət edən 25 min, SS, SD və Lyuftvaffe hərbi hissələrində xidmət edən 7 min qafqazlı əsgər və zabitin də bir hissəsi azərbaycanlılar idilər. Ə. Fətəlibəyli isə bütövlükdə Almaniya tərəfində vuruşan azərbaycanlıların sayının 150 min nəfərə yaxın olduğunu bildirirdi (Mədətov, 1965).

## 2-Azərbaycan mühacirəti və legionlar

İkinci dünya müharibəsi illərində Azərbaycan mühacirətinin mərkəzi siması M. Ə. Rəsulzadə idi. Müharibə başlayanda M. Ə. Rəsulzadə Polşada yaşayırdı. 1939-cu ilin sentyabrında Polşa faşist Almaniyası tərəfindən tutulduqdan sonra M. Ə. Rəsulzadə Fransaya gəldi. Fransa 1940-cı ilin yazında Vermaxt tərəfindən işğal edildiyindən M. Ə. Rəsulzadə İsveçrəyə getdi. 1939-cu il sentyabrın 30-dan Londonda yerləşən mühacir Polşa hökumətinin birinci sədri Vladislav Sikorski tərəfindən M. Ə. Rəsulzadə Britaniyaya dəvət edildi, lakin Almaniyanın SSRİ-yə hücumu ərəfəsində M. Ə. Rəsulzadə Londonu tərk edib Buxarestə gəldi və sovet orduları şəhərə yaxınlaşana qədər Rumıniya paytaxtında yaşadı (Balayev, 2009, s. 254).

1941-1945-ci illər müharibəsi zamanı Berlində təsis edilən və fəaliyyət göstərən Mühacir Azərbaycan Komitəsi və azərbaycanlı legionların müharibədə iştirakı Azərbaycan sovet

tarixşünaslığında tədqiq edilməyən mövzulardandır. Doğrudur, Sovet dövrünün sərt inzibati amirlik sistemi və Kommunist Partiyasının siyasi ideoloji konsepsiyasından kənara çıxa bilməyən tədqiqatçılar bu mövzunu ətraflı araşdırmamış, Hitler ordusu tərəfində SSRİ-yə qarşı vuruşan azərbaycanlılardan təşkil olunmuş legionerlərin döyüş yolu və hərbi fəaliyyəti araşdırmadan kənarda qalmış, yalnız müstəqillik illərində yenidən geniş araşdırılmağa başlanılmışdır. Təəssüf hissi ilə bildirməliyik ki, son tədqiqatlarda da problemə münasibətdə ikili standartlar hiss olunmaqdadır. Belə ki, İkinci dünya müharibəsi illərində Azərbaycanın azadlığı uğrunda mübarizə aparan Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri M. Ə. Rəsulzadənin siyasi fəaliyyəti birtərəfli araşdırıldığından bəzi müəlliflər onu hitlerçilərlə əməkdaşlıqda ittiham edir, "sosializmin düşməni" kimi göstərirlər.

M. Ə. Rəsulzadənin müharibə zamanı A.Hitler ilə görüşərək azərbaycanlı hərbi əsirlərin həyatı ilə maraqlanması, onların yəhudilərlə birlikdə soyqırıma məruz qalmasından xilas edilməsi, müharibədən sonra azərbaycanlı legion üzvlərinin taleyinə biganə qalmayaraq onlara dəstək olması və Azərbaycan həqiqətlərini dünyaya çatdırması kimi faktlara müasir tarixşünaslığımızda daha çox rast gəlinir.

Faşist Almaniyasının bu planına Azərbaycan mühacirətinin, xüsusilə M. Ə. Rəsulzadənin baxışı tamamilə fərqli idi. Mühacirətin əsas məqsədi Sovet işğalının aradan qaldırılması, müharibə nəticəsində əsir düşmüş həmvətənlərin xilas olunması idi. Oktay Rəfili (ədəbi təxəllüsü Eldəgiz) "Reyxstaqda düşbərə" adlı məqaləsində yazır ki, Türkiyə ilə SSRİ arasında olan dostluq və əməkdaşlıq Stalinə imkan verirdi ki, Atatürkdən bolşeviklərə qarşı fəal təbliğat aparan "Müsavat" partiyasının liderlərinin ölkədən çıxarılmasını tələb etsin. Atatürk ürək ağrısı ilə "Müsavat" funksionerlərinin ölkədən çıxarılmasına məcbur olmuşdu. M. Ə. Rəsulzadə və onun sadiq silahdaşları ölkədəki vəziyyəti bildiklərindən bunu sakit qarşılamış, "Müsavat" fəalları Almaniyaya gəlmişdilər.

M. Ə. Rəsulzadə Avropaya getməzdən əvvəl Atatürkün iqamətgahında onunla görüşür. Görüşdə Atatürk Məmməd Əmin Rəsulzadəyə müraciət edərək deyir: "Əmin bəy, mən səndən bir neçə yaş böyük olsam da, ancaq bayrağı, türk xalqının azadlıq bayrağını sən qaldırdın. Və dedin, "Bir dəfə qalxan bayraq, bir daha enməz"! Ancaq mən bu bayrağı tutdum və öz türk xalqımın üzərində dalğalandırdım! Sən dedin: Bu bayraq enməyəcək!!! Belə də olacaq!" Əziz qardaşım, deyir Rəsulzadə – türk dünyasının azadlıq bayrağı ikidir, biri sənin əlində, digərinə isə mən söykənmişəm. Allaha yalvarıram, Avropadan qayıdana kimi Azərbaycanda xalq hakimiyyəti qalib gəlsin və biz bu bayraqla Azərbaycana daxil olaq (Dzhakhannuri, 2010, s. 25).

Bu gün bolşeviklər 27 apreli bayram edirlər, biz isə həlak olanlara qüssələnirik və onlar istəyirlər tarixdən 28 mayı – ADR-in yarandığı günü silsinlər. Yaddan çıxarmaq lazım deyildir ki, Türkiyənin böyük düşməni kommunist, bolşevik diktaturasıdır" (Dzhakhannuri, 2010, s. 26).

M. Ə. Rəsulzadə Almaniyada 116 min müsəlmanı ölümün pəncəsindən xilas etdi (20,s.61). Hitlerlə sonuncu görüşündə M. Ə. Rəsulzadə böyük seçim qarşısında qaldı. Reyxstaqda fürerin şəxsi yeməkxanasında M. Ə. Rəsulzadənin nümayəndə heyətinə verilən günorta yeməyində Adolf Hitlerdən başqa 2-ci ordunun komandanı Keytel, Bormanın 2-ci adamı Mendel də iştirak edirdilər. Fürerin şəxsi aşpazı süfrəyə xüsusi kasada bakılıların milli yeməyi olan sirkə və sarımsaqla yeyilən düşbərə verir. Bu Azərbaycandan olan qonaqları çox təəccübləndirir. Hamı düşbərə yeyir. Sonralar aydınlaşır ki, aşpazın atası sovet illərində Azərbaycan torpağında – Gədəbəydə yaşamış, Azərbaycan mətbəxini sevmişdir (Rəfili, 2002, 1992).

Rəfilinin "Reyxstaqda düşbərə" adlı məqaləsində M. Ə. Rəsulzadənin Hitlerlə görüşünə də toxunulur. Rəfili yazır ki, "Şərq Nazirliyinin başqanı Rozenberq onun köməkçisi Mayor və şöbə müdiri fon Mende o vaxtkı taleyimiz üçün önəmli daha bir addım atdılar. Müsavat rəhbərimizin fürerlə üz-üzə diplomatik görüşünü həyata keçirdilər. 8 dekabr 1943-cü ildə Reyxstaqın zirzəmisindəki fürerin şəxsi aşxanasında süfrə başında Hitler, qərargah rəisi Keytel, 2-ci ordu komandanı Mendel, imperiyanın 2-ci şəxsi Borman və yuxarıda sözü gedən üç nəfər, bir də fürerlə qarşı-qarşıya əyləşmiş M. Ə. Rəsulzadə saat düz 13.00-da mərhamanə bir söhbətə başladılar. Sükutu fürer pozdu:

**Fürer:** – Cənab Rəsulzadə, inişil Azərbaycan legionerləri önündəki çıxışınızda onların, guya öz azadlıqları uğrunda mübarizəyə qalxan xalqlara qarşı vuruşlarını istisna etmişsiniz. Bu doğrudurmu?

Son on sənədə alman, polyak və rumın dillərini kamil mənimsəmiş öndərimiz məclisdə mütərcimsiz ilk sözünü gizlətmədən söylədi:

**M. Ə. Rəsulzadə:** – Bəli, cənab fürer. Biz yalnız rus bolşevizminə zərbə vurmaq üçün alman ordularına dəstək vermək istərdik.

Bu zaman süfrəyə 7 yaşıl dərin çini kasa gətirildi. Sirkə fincanlarına və buğlanan nanəli isti düşbərə kasalarına heyrətlə göz qoyan öndər, sağ tərəfində oturmuş Rozenberqin boğuq səsini eşitdi:

**Rozenberq:** – Cənab Rəis. Bizim əzəmətli fürerimizin baş aşpazı sizin Gədəbəyin mis mədənlərinin hörmətli aparıcı mühəndisinin yeganə oğludur. Görünür, sizin diyarın ləziz

xörəklərindən birini bugünkü varlığa (menyu) salarkən, o günlərinə qayıtmaq istəyib (Rəfili, 2002, 1992).

Fürer ağ çörək tikəsini barmaqları ucunda sıxaraq "Müzəffər alman orduları bolşeviklərlə tarixi işini bitirən kimi mən Sizi güneyli-quzeyli Bütöv Azərbaycanın və tamam Qafqazın baş canişini təyin edəcəyəm. Razısanmı? – deyə müsahibinin düz gözlərinin içinə baxdı.

**M. Ə. Rəsulzadə:** – Razıyam, cənab kansler. Bir şərtim var, gərək qalib Almaniya mənim Bütöv Azərbaycanımın dövlət müstəqilliyini tanısın, suverenliyimizə hörmətlə yanaşsın.

Hitler əsəbi görkəm aldı, lakin birdən sakitcə bunları dedi: – "Bakı ayrıca coğrafi-siyasi vahid, siz isə bu böyük bölgənin canişin hakimi olursunuz, cənab Rəsulzadə".

Müsavat başqanı yenə cəsarətlə etirazını bildirdikdə, artıq boş kasaların diblərinə son qaşıqlar enirdi.

**Fürer daha kəskin səslə ucadan qışqırdı:** – "Mən sizə geniş fəaliyyət dairəsi bağışlayıram. Bir də düşünün".

**Öndərimiz qətiyyətlə bildirdi:** – "Cənab fürer, mən də sizin kimi, vətənimin azadlığı və istiqlal arzularını əziz tuturam. Müsavat, Bütöv Azərbaycan sizin Almaniyanın etibarlı müttəfiqi olacaq" (Rəfili, 2002, 1992).

Fürer masadan qalxır, başını yelləyir. Görünür hələ heç bir qonaq, ona tabe olan heç bir kəs fürerlə belə açıq danışmamışdı, bunu Azərbaycan lideri etdi. Fərq aydındır. Erməni liderləri torpaq iddia edir, Azərbaycan lideri isə xalqına azadlıq, suverenlik.

1943-cü ildə M. Ə. Rəsulzadənin Azərbaycan legionerləri qarşısındakı çıxışları, onun ''...xalqların azad dövlət həyatını və müstəqilliyini əlindən almış, onların dövlət müstəqilliyinə qəsd etmiş Almaniya kommunist işğalı altında olan Azərbaycana heç vaxt müstəqillik verə bilməz" (Dzhakhannuri, 2010. s. 257). bəyanatı alman komandanlığını narahat etməyə başladı, M. Ə. Rəsulzadə 1943-cü ilin noyabrında ''qeyri-qənaətbəxş işinə" görə almanlar tərəfindən ''Azərbaycan Milli Komitəsi"nin rəhbərliyindən uzaqlaşdırıldı və yenidən Buxarestə qayıtdı.

**3-Legionlar döyüş cəbhələrində**

E. Fayql yazır ki: İkinci dünya müharibəsi zamanı adlarına layiq cəsurluq göstərən ''Aslan", ''Dönməz" və ''İgid" adlı azərbaycanlı batalyonlar nifrət etdikləri sovet-rus imperiya-sına qarşı vuruşurdular (Fayql, 2009, s. 135). 1943-cü ilin fevral ayında mayor Qloqer və mayor Ə. Fətəlibəyli-Düdənginskinin komandanlığı altında 804-cü Azərbaycan batalyonu Kuban rayonunda döyüşlərdə fərqləndiyinə görə ona ''Aslan" adı verilmişdi. Bataloynun komandiri əvvələlər tədris müəssisələrində direktor işləmiş mayor dr. Qloger, onun müavini Ə.Fətəlibəyli-Düdənginski idi (İbrahimli, 2012, s. 317).

805-ci ‘‘Dönməz” Azərbaycan piyada batalyonu 1942-ci ilin payızında Ukraynanın Priluki şəhərində formalaşdırıldı (İbrahimli, 2012, s. 317). Bu piyada batalyon da Qafqaz uğrunda döyüşlərdə iştirak etdi, 1942-ci il oktyabr ayında 1-ci tank ordusunun tərkibində ön cəbhədə döyüşlərə atıldı. Şərq Legionları Komandanlığı tərəfindən 1942-ci il sentyabrın 12-də kapitan Hoxun rəhbərliyi altında şərq cəbhəsinə göndərilən Azərbaycan batalyonunda 919 azərbaycanlı və 37 alman xidmət edirdi. Batalyon qərargah və 5 rotadan ibarət olub silah-sursatla təchiz olunmuşdu (Fayql, 2009, s.144).

Azərbaycan batalyonu birinci iki ayı Şemqala və qismən Xaznidon-Lesken ərazisində keçilməz meşə və dağ massivində ön xətdə yerləşdirildi. Azərbaycanlılar onlara qarşı bəslənən ümimdləri tam doğrulda bildilər. Azərbaycanlı legionerlər qarşıya qoyulan tapşırıqlıarı tam yerinə yetirdilər (Fayql, 2009, s. 146).

1942-ci ilin yayında Yedlinoda formalaşdırılan 806-cı Azərbaycan piyada batalyonu ilk hərbi əməliyyata Feodosiyada başladı (İbrahimli, 2012, s. 317). 1942-ci ilin dekabrın 17-də batalyonun ilk hissələri Çeçen-İnquşetiya Muxtar SSR-də Terek çayından cənubda Malqobek və Verxni Kurp arasında mövqe tutan 50-ci piyada diviziyasına (52-ci ordu korpusu, 1-ci tank ordusu) qoşuldu. Batalyonun şəxsi heyəti 911 azərbaycanlı və 44 almandan ibarət idi. Batalyonun komandiri kapitan Otendorf idi (Fayql, 2009, s. 147). 806-ci Azərbaycan piyada batalyonu döyüşlərdə böyük itkilər versə də, sovet qoşunlarının hücumuna sinə gərdi. Batalyona göstərdiyi rəşadətə görə “İgid” fəxri adı verildi. Döyüşlərdəki itkilər batalyona mənfi təsir göstərdi. Batalyon 1945-ci ildə Fransadakı döyüşlərdən sonra ingilis-amerikan hərbi qüvvələrinə əsir düşdü.

Azərbaycanlıların iştirak etdiyi legioner birliklərdən biri də fon Xeyqendorfun komandanlıq etdiyi 162-ci piyada diviziyası idi. Bu diviziya bütövlükdə türklərdən (180 min) təşkil edilmişdi. Diviziyanın tərkibində 6 Azərbaycan batalyonu var idi və onların bazasında həmin diviziyanın tərkibində az sonra 314-cü Azərbaycan alayı təşkil edilmişdi.

**4-Kapituliyasiya və legionlar**

Almaniya ordularının Stalinqrad ətrafında məğlubiyyətindən sonra Azərbaycan legionerlərinin sovet ordusu tərəfinə keçməsi halları çoxalmağa başladı. 1943-cü ildə Krım yarım-adasında 60 azərbaycanlı legiondan qaçaraq Mir Cəfər Bağırov adına partizan dəstəsini yaratdılar. Mehdi Hüseynzadə Yuqoslaviya partizan hərəkatının, Məmməd Bağırov İtaliya, Əhmədiyyə Cəbrayılov, Nuru Abdullayev, Mirzəxan Məmmədov, Hüseynrza Məmmədov və digərləri Fransa müqavimət hərəkatının sıralarında rəşadətli döyüş yolu keçdilər (Abutalybov, 2007, s. 14-15).

Sovet rəhbərliyi Ruzvelt və Çörcillə Yalta görüşündə (fevral 1945 - ci il) hərbi əsirlərin vətənə qaytarılması haqqında razılığa gəldilər. SSRİ-nin ABŞ və Böyük Britaniya ilə qarşılıqlı razılaşmasında əsirlərin dəyişdiril-məsi prinsipləri müəyyənləşdirildi. SSRİ-yə qayıdan əsir-ləri və legionerləri ağır cəzalar gözləyirdi. Stalinin 1941-ci ilin 16 avqustunda verdiyi 270 saylı əmrə əsasən əsir düşmüş bütün sovet əsgərləri qiyabi olaraq güllələnməyə məhkum edil-mişdilər. Xalq Komissarlar Sovetinin təhvil verilmə işləri üzrə səlahiyyətli nümayəndəsi ge-neral-polkovnik F. İ. Qolikovun 1945-ci il 7 sentyabr tarixli məlumatına əsasən həmin vaxta kimi sovet hökumətinə 2.229.552 nəfər təhvil verilmişdi. Buraya hərbi əsirlərlə yanaşı, zorla Almaniyaya köçürülənlər də daxil idi.Vətənə qayıdanlar içərisində 24.333 azərbaycanlı vardı.

Almanlar məğlubiyyətə uğradıqdan və təslim aktını imzaladıqdan sonra milli legionların qalan taborları tərkisilah edildi, ayrı-ayrı ölkələr-dəki əsir düşərgələrində yerləşdirildi. Legionerlər Sovet hökumətinə təslim edilmək üçün milliyyətlərə görə qruplaşdırıldı. Ancaq Stalinin Krım tatarlarını, karaçayları, çeçen-inquşları kütləvi deportasiya etməsi xəbəri legionerlər arasında ciddi təşvişə səbəb oldu. Sovet İttifaqında onları gözləyən aqibəti başa düşən legionerlər imkan yaranan kimi qaçmağa başladılar. 162-ci tabor sovet hökumətinə təhvil veriləndə təkcə bir qatardan 80 nəfər qaça bilmişdi (İbrahimli, 2012, s. 170).

Hitler Almaniyası təslim olanda Qərb müttəfiqlərinin əlində 28 min nəfər azərbaycanlı legioner var idi. Bunlardan yalnız 800 nəfəri Qərb ölkələrində daldalana bildi, qalanları Qərb müttəfiqləri tərəfindən Sovet hərbi və hakimiyyət orqanlarına təslim edildi. Sovet hərbi mühacirlərinin 195 nəfərlik ilk dəstəsi 1945-ci ilin avqust ayının 6-da SSRİ-yə təslim edildi. Onların böyük əksəriyyəti azərbaycanlılar idi (Fayql, 2009, s. 326). Onlar dəniz yolu ilə Odessaya gətirildilər. Buna etiraz əlaməti olaraq çoxları özünü gəmidən dənizə atdı. Sağ qalanlar 20 illik katorqa cəzasına məhkum edildilər. Münhendə Azərbaycan Demokrat Birliyinin üzvü Kəngərlinin məlumatına görə, birlik 3 mindən artıq azərbaycanlını əsirlikdən xilas edib Türkiyədə yaşamasına kömək etdi (İbrahimli, 2012, s. 171).

## 5-Legionerlər və Stalin

Sovet Ordusunun zabiti olmuş Əbdürrəhman bəy Fətəlibəylinin (Düdənginski) hitlerçilərlə əməkdaşlıq etməsi və Mühacir Azərbaycan Komitəsi yaradaraq Azərbaycanın istiqlaliyyəti üçün mübarizəsi də müasir tarixşünaslığımızda birmənalı deyildir.

Azərbaycan legionlarının fəaliyyəti haqqında kitablar nəşr olunmuşdur. Belə nəşrlərdən biri 2009-cu ildə işıq üzü görmüş görkəmli Avstriya tarixçisi, yazıçı Erix Fayqlın alman dilindən tərcümə edilmiş “İpək yolu üzərində Odlar yurdu – Azərbaycan tarixi” kitabıdır (Fayql, 2009). Kitabın “Aslan”, “Dönməz” və “İgid” bölmələri araşdırdığımız mövzu baxımından maraq kəsb edir. Kitabın müsbət cəhətləri ilə yanaşı çatışmazlıqları da vardı. Milliyyətcə alman

olan Erix Fayqlın kitabında bəhs olunan məsələdə alman komandanlığına, dolayısı ilə Hitlerə haqq qazandırmağa cəhd olunur, sovetlər birliyi işğalçı, milli-azadlıq hərəkatını boğan, müstəqilliyin düşməni kimi göstərilir. Müəllif fəslin əvvəlində (Fayql, 2009, s. 135-152). qeyd etsə də, araşdırmadan məlum olur ki, batalyonların rəhbəri alman idi. Tarixşünaslığın təhlilinə istinadən deyə bilərik ki, İkinci dünya müharibəsi "...bir-birinə əks olan iki düşüncənin, iki ideologiyanın, iki hərbi qüvvənin qarşılaşması, dünyanı yenidən nüfuz dairələrinə bölmək uğrunda aparılan mübarizə idi. Bu müharibədə hansı tərəfin haqlı və haqsız olduğunu söyləmək və qiymətləndirmək, birini düşmən, digərini mələk kimi qələmə vermək ... ədalətsizlik olardı. Yalnız bir həqiqəti etiraf etmək lazımdır ki, mənəvi-mədəni amil bu müharibədə həlledici şərtlərdən biri olmuş", adamların yüksək vətənpərvərliyi, vətəndaşlıq şüuru, əzmkarlıq və mərdlik kimi mənəvi keyfiyyətlər qələbədə mühüm rol oynamışdır.

Mühacir Azərbaycan hökuməti və milli legionlarımızın fəaliyyətinə tarix elmləri doktoru Tahir Qafarovun 1993-cü ildə çap olunmuş məqaləsində daha geniş toxunulub. Müəllif yuxarıdakı əsərdən fərqli olaraq göstərir ki, hərbi əsirlərin içərisində yəhudilər kimi azərbaycanlılar da öldürülürdü. Müsəlman əsirlərlə işi səmərəli qurmaq üçün Qüds müftisi Hacı Əmin Əl-Hüseyni Almaniyaya dəvət olmuş, hətta I tank ordusunun komandanı general fon Makizen məsciddə namaz da qılmışdı. Sonra məqalədə göstərilir ki, Geniqsberqin "Telzit" hərbi düşərgəsindən Azərbaycan türklərini və müsəlman azərbaycanlıları seçib "Şelzi" hərbi düşərgəsinə apardılar. Onları Bavariyadakı "Berqman", "Dağlı" hərbi hissəsinə göndərdilər. Yararsız azərbaycanlı əsirlər mülki işlərə cəlb olunurdular. Sovet Ordusunun arxasında təxribat aparmaq üçün 7 türk, 1 Azərbaycan hərbi hissəsi yaradılmışdı (Drobyazko, 1999).

Mühacir Azərbaycan Komitəsinin və legionunun uğursuz taleyindən yazan müəllif M.Ə.Rəsulzadənin 1944-cü ilin avqustunda Rumıniyadan Almaniyanın Frankfurt şəhərinə gəlməsini, 1945-ci ilin aprelində ABŞ-ın işğal zonasına keçdiyini və 1947-ci ildə Türkiyəyə qayıdaraq Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizəsini davam etdirməsinə toxunur. 2014-cü ildə "Şərq" qəzetində isə Mühacir Azərbaycan Komitəsinin fəaliyyəti və Ə. Fətəlibəyli-Düdənginskinin sovet casusu tərəfindən qətli barədə son araşdırmalara toxunulub (Şərq qəzeti, 2014, 11 aprel, s. 11).

Həsənlinin 2015-ci ildə işıq üzü görmüş "II Dünya müharibəsi illərində Azərbaycanın hərbi, siyasi və diplomatik münasibətlərdə (1939 -1945)" adlı əsərinin VI fəslində müharibə illərində Azərbaycan mühacirətinin Almaniya ilə əlaqələrindən bəhs olunur. Kitabın "Üçüncü Reyxin Qafqaz mühacirlərini təşkilatlandırmaq cəhdləri" adlanan bölməsində Almaniya höku-

mətinin Qafqaz və Azərbaycanla bağlı planlarına, M. Ə. Rəsulzadənin Türkiyə vasitəsilə Alman hakim dairələri ilə əlaqələrinə, 1941-ci ilin payızında Türkiyədə yaşayan Azərbaycan mühacirlərinin fəaliyyətinə aydınlıq gətirilir (Həsənli, 2015, s. 273). Milli legionların yaranması və Azərbaycan mühacirətindən bəhs edən müəllif 1942-ci ilin martında ilk Azərbaycan legionunun yaradılması zamanı əsir düşərgələrində 50 min azərbaycanlının saxlandığını və ölümlə üz-üzə qaldığını (Həsənli, 2015, s. 292), döyüşdə fərqləndiklərinə görə Azərbaycan legionlarına "Aslan", "İgid", "Cavad xan", "Dönməz" və "Qorxmaz" adlandırıldığını yazan Həsənli legionun 162-ci piyada diviziyasının tərkibində 6 Azərbaycan batalyonunun, sonralar 314-cü Azərbaycan alayının yaradılması və onların acınacaqlı sonluğa düçar olduğunu bildirir. Müəllif bildirir ki, II Dünya müharibəsində Almaniya tərəfindən vuruşan azərbaycanlı legionerlərin sayı 37913 nəfər olmuşdur. Onların 169 nəfəri polkovnik, 3721 nəfəri kiçik rütbəli zabitlər idi. Bundan başqa alman ordusunda xidmət edən 25, SS, SD və Lyuftvaffe hərbi hissələrində xidmət edən 7 min qafqazlı əsgər və zabitin də bir hissəsi azərbaycanlı idi. Ümumilikdə mayor Ə. Fətəlibəylinin məlumatına görə Almaniya tərəfindən sovetlərə qarşı vuruşan azərbaycanlıların sayı 150 min nəfərə yaxın olmuşdur (Həsənli, 2015). 1945-ci il aprelin 1-nə olan məlumata görə müxtəlif döyüşlərdə iştirak edən azərbaycanlı legionların sayı 13.100 nəfər olmuş, onlardan 7350 nəfəri yaralanmış, 2940 nəfər itkin düşmüşdür (Həsənli, 2015, s. 317).

Azərbaycan legionlarının və mühacir Azərbaycan hökumətinin fəaliyyətinə Xaləddin İbrahimlinin 1996 və 2012-ci ildə təkrar çap etdirdiyi "Azərbaycan mühacirəti tarixi" əsərinin sonuncu – 3-cü bölməsində rast gəlinir. Müxtəlif taborlarda Azərbaycan legionçularının 70 mindən çox olduğunu deyən müəllif əlavə edir ki, Azərbaycan legionçuları Məcid Musazadənin redaktorluq etdirdiyi "Azərbaycan", "Hücum" və Cəlil İsgəndərin "Milli Birlik" dərgisini yayımlayırdı. 1944-1945-ci illərə qədər dərc olunan bu mətbuat orqanlarında əsasən legionçuları "bolşeviklərə qarşı mübarizəyə" səsləndirən məqalələr və şerlər nəşr edilirdi (İbrahimli, 2012, s. 157).

Stalin azərbaycanlı legionerlərin taleyini diqqətlə izləyir, onların Türkiyə ilə olan əlaqələrindən narahatlıq keçirirdi. Mühacirətdə olan azərbaycanlı siyasi xadimlər DTK-nın əməkdaşları tərəfindən qətlə yetirilirdilər. Belələrindən biri 1908-ci ildə Naxçıvanın Şərur rayonunun Düdəngə kəndində dünyaya gəlmiş, 1939-cu ildə Finlandiya müharibəsində iştirak edən və ''Qırmızı Ulduz" ordeni ilə təltif olunan, 1940-cı ildə sovet qoşunları Pribaltikanı işğal edərkən almanlara əsir düşmüş Əbdürrəhman bəy Fətəlibəyli- Düdənginski idi. O, 1954-cü ildə Sovet İttifaqından göndərilmiş muzdlu qatil Mikayıl İsmayılov tərəfindən qətlə yetirildi (Əmrahov, 2009, s. 269).

Sovet xüsusi xidmət orqanlarını hədəfində olanlardan biri də Mehdi Hənifə oğlu Hüseynzadə idi. Mehdi Hənifə oğlu Hüseynzadə 22 dekabr 1918-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur. Atası Hənifə Hüseynov (1881-1922) Hümmət təşkilatının üzvü olub, Azərbaycanda Sovet rejiminin qurulması üçün çalışan fəal döyüşçülərdən idi. Daha sonra o, Azərbaycan milisinin rəisi olmuş, ölkə ərazisində banditizmə qarşı mübarizə aparmış, həyatının sonlarına yaxın Bakı Sovetinin inzibati şöbəsinin müdiri olmuşdur. Erkən yaşda atasını itirən Mehdi əvvəl anası, sonra isə bibisi tərəfindən böyüdülmüşdür.

1925-ci ildə Mehdi yazıçı Süleyman Sani Axundovun direktoru olduğu 77 saylı natamam (7 illik) orta məktəbə (sonradan 19 saylı orta məktəb olmuşdur) daxil olur. Onun ilk müəllimi bəstəkar Səid Rüstəmov idi. 1932-ci ildə o, orta məktəbi bitirərək Bakı Rəssamlıq məktəbinə daxil olur. Burada o, Kazım Kazımzadə, Əsgər Abbasov, Əli Zeynalov, Mürsəl Nəcəfov ilə birlikdə oxuyur.

1936-cı ildə məktəbi bitirən Mehdinin diplom işi Qırmızı Ordu əsgərlərinin həyatından bəhs edirdi və o rəsmini “Qırmızı Ordu əsgərləri düşərgələrdə” adlandırmışdı. Məktəbi bitirdikdən sonra Mehdi Suraxanıda ibtidai məktəblərdən birinə müəllim kimi göndərilir, burada bir neçə ay işləyir. O, eyni zamanda Abbas Səhhət adına kitabxanada oxu zalının rəhbəri kimi də fəaliyyət göstərir. Mehdinin ən böyük arzusu İncəsənət Akademiyasına qəbul olunmaq idi və bu məqsədlə Leninqrada (Sankt-Peterburq – red.) gedir. Lakin Akademiyaya daxil ola bilmədiyindən Bakıya qayıdır və burada Məşədi Əzizbəyov adına kitabxanada işləyir. Bir ildən sonra o yenidən Leninqrada gedir, lakin bu dəfə İncəsənət Akademiyasına deyil, Leninqrad Xarici Dillər İnstitutunun Fransız dili fakültəsinə daxil olur. 1940-cı ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinin ikinci kursuna köçürülür. Onun bu instituta keçməsinin səbəbi poeziyaya və ədəbiyyata olan sevgisindən irəli gəlirdi.

Mehdi beş dildə – fransız, alman, ispan, italyan və rus dillərində sərbəst danışırdı. O, bu dilləri Leninqrad Xarici Dillər İnstitutunda oxuyanda öyrənmişdi.

Müharibə başlanarkən Mehdi tələbə idi. Təhsilə ara verib kitabı döyüş silahı ilə əvəz etmək lazım gəldi. 1941-ci ildə faşist Almaniyası SSRİ-yə hücum edəndə ordu sıralarına çağırılan Mehdi 1942-ci ildə Tiflisdə piyada hərbi məktəbini leytenant rütbəsində bitirir həmin ilin avqustunda yenicə təşkil olunmuş 223-cü Azərbaycan atıcı diviziyasının 1041-ci alayına taqım komandiri göndərilir. O, bu diviziyanın tərkibində Şimali Qafqazda Mozdok istiqamətində döyüşə girir. Mehdi 1942-ci ilin noyabr ayında Stalinqrad döyüşlərində iştirak edir. O, kiçik bacısı Hürriyyət xanım Əzizbəyovaya yazırdı: “Mən sizə söz verirəm ki, son damla qanıma qədər vuruşacağam, sizi əmin edirəm ki, mən qəhrəmancasına döyüşəcəyəm, sizin

başınızı ucaldacağam, ölsəm də qəhrəmancasına öləcəyəm! Mənim barəmdə eşidərsiniz, hələlik sağ olun. Bu mənim son məktubumdur!".

Baxış Mehdiyev "223-cü Qırmızı bayraqlı Belqrad atıcı Diviziyası" kitabında yazır ki, 1942-ci il dekabrın 10-dan 223-cü Diviziya ağır döyüşlər apardı. 1942-ci ilin yayında Stalinqrad ətrafında döyüşlərdə iştirak edən M. Hüseynzadə həmin ilin avqust ayında Kaliç şəhəri yaxınlığındakı döyüşdə ağır yaralanır və əsir düşür.

Hüseynzadə Qafqaz uğrunda vuruşmuşdur və həyatının sonuna qədər 223-cü diviziyanın döyüşçüsü kimi qalmışdır. SSRİ Müdafiə Nazirliyinin Arxiv Sənədlərinə əsasən Mehdi Hüseynzadə 223-cü diviziyanın 1041-ci alayının atıcı taqım komandiri kimi 1942-ci il dekabrın 29-da alman işğalçıları ilə mübarizədə həlak olmuş sayılır. Baxış Mehdiyev yazır ki, SSRİ Müdafiə nazirliyindən əldə etdiyi sənəddə bildirilir ki, leytenant Mehdi Hənifə oğlu Hüseynzadə 1942-ci il dekabrın 9-da 223-cü diviziyanın 1041-ci atıcı alayının taqım komandiri vəzifəsində 29 dekabr 1942-ci tarixində həlak olduğu üçün 26 mart 1943-cü il tarixli 028 №-li əmrlə Silahlı Qüvvələrin şəxsi heyətinin siyahısından çıxarılmışdır.

Stalinqrad ətrafındakı döyüşdə ağır yaralanaraq faşistlərə əsir düşən iyirmi dörd yaşlı leytenant Hüseynzadə 1944-cü ilin əvvəlində bir qrup yoldaşları ilə İtaliyadakı düşərgədən qaçır və Yuqoslaviya Xalq Azadlıq Ordusunun Sloven Sahilyanı 9-cu korpusunda fəaliyyət göstərən partizanlara qoşulur Burada azərbaycanlılardan ibarət İvan Qradnik adına 3-cü Sloveniya xalq-azadlıq briqadası 4-cü batalyonunun rus rotası yaradılır. Rotanın komandiri Cavad Həkimli, komissarı Mehdi Hüseynzadə təyin edilir. Rota Aydovşçina şəhərindən şimal istiqamətində Angel dağı ətəyində yerləşən Otliça kəndində məskən salır. Sloveniya partizanı, hərbi tarixçi Stanko Petelinin 9-cu korpusdakı ən yaxşı diversantlardan biri adlandırdığı "Mixaylo" ləqəbli Mehdi keçmədən Adriatik dənizi sahilindəki Sloveniya kəndlərində məşhurlaşır.

Nə üçün Mehdi "Mixaylo" ləqəbini götürmüşdü? Tarixi faktlardan məlum olur ki, 1500-cü ilin ortalarında Yuqoslaviyada hakim istilaçılara qarşı mübarizə aparan 12 nəfər mərd komandir olub. Onlardan biri də hərbiçi ailəsindən çıxmış xalqının azadlığı uğrunda vuruşan Mixaylo Quşetiç Matiya (?-1574) idi. Heç şübhəsiz ki, Mehdi yerli əhalidən bu qəhrəman barədə məlumatlanmış, "Mixaylo" təxəllüsünü həmin igidin şərəfinə qəbul etmişdir. Kənd sakinləri bu qrupun partlatdığı faşist anbarları, hərbi sursat aparan eşelonlar, dişlərinə qədər silahlanmış hitlerçilər üzərinə bir dəstə igid tərəfindən edilən cəsarətli hücumlar haqqında eşidib heyrətə gəlirdilər. Partizanlar təyyarə meydanlarından birində iki alman təyyarəsini məhv edir, Triyestdə çıxan bir faşist qəzetinin redaksiyasını və mətbəəsini mina ilə partladır, dəmir yollarını minalayır, alman avtomaşınlarını məhv edir, zabitləri əsir alırdılar. Mehdinin döyüş

hesabında yüzlərlə öldürülmüş faşist vardır. 1944-cü il aprelin 2-də Mehdi Hüseynzadə Mirdaməd Seyidovla birgə Triyest şəhəri yaxınlığında yerləşən Opçine (sloven. Opçine) yaşayış məntəqəsindəki kinoteatr binasını kinoseans zamanı partlatmağı planlaşdırılar. Onlar kinoteatr zalına girərək cəldliklə kürsünün altına mina quraşdırıb binanı tərk edirlər. Partlayış nəticəsində 80 alman əsgəri ölür, 60 nəfər ağır, 200 nəfər isə yüngül yaralanır. Yaralananların 40 nəfəri hərbi hospitalda aldıqları yaralardan ölür. Aprelin 22-də Mixaylo ikinci böyük diversiyanı həyata keçirir. Alman əsgəri paltarında M. Hüseynzadə və Mirdaməd Seyidov Bia Qeqa küçəsində əsgər evi olan alman restoranının binasına girir, stol arxasında iki yer tutub stolun altında partlayıcı çantanı qoyur və talon almaq adı ilə zaldan çıxırlar. Alman restoranı havaya uçduqdan sonra hitlerçilər iki sutka ərzində dağıntıların altından ölüləri və yaralıları çıxarırlar. İtaliyan faşist qəzeti olan "İl Pikkolo"nun partlayış haqqında 23 apreldə dərc etdiyi məqalədə deyilirdi: "Dünən, şənbə günü kommunist elementləri Trestdəki alman əsgər kazarmalarına terrorçu sui-qəsdi törətdilər ki, bu da bir neçə alman əsgərinin və italyan vətəndaşının həyatına son qoydu". Partlayışı törətməkdə təqsirləndirilən və elə bu binada yerləşən bərbərxanadakı insanlar gestapoçular tərəfindən tutulur və edam edilir. Mixaylo Trestdə "İl Pikkolo" qəzetinin redaksiyasını və mətbəəsini partladır. Bir müddət keçəndən sonra Mehdi öz yoldaşı Əli Tağıyev və antifaşist Hans Frislə daha bir diversiya törədirlər, 24 vaqondan ibarət alman əmlak qatarının keçdiyi Postoyn dəmiryolu stansiyası yaxınlığındakı körpü partladılır.

1941-ci ildə ordu sıralarına çağırılan və 1942-ci ildə Tiflisdə piyada hərbi məktəbini bitirərək (Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları, 1963, s.21-22). leytenant rütbəsi alan Mehdi 1942-ci ilin avqustunda yenicə təşkil olunmuş 223-cü Azərbaycan atıcı diviziyasının 1041-ci alayına taqım komandiri göndərilmiş, Şimali Qafqazda Mozdok istiqamətində döyüşə girmişdi. 1942-ci il dekabrında başlanan döyüşlərdə ağır yaralanan Mehdi Hüseynzadə 1942-ci il dekabrın 9-da faşistlər tərəfindən əsir alınır. Ancaq SSRİ Müdafiə Nazirliyinin sənədində leytenant Mehdi Hüseynzadə 29 dekabr 1942-ci tarixində həlak olduğu üçün 26 mart 1943-cü il tarixli 028 № li əmrlə Silahlı Qüvvələrin şəxsi heyətinin siyahısından çıxarılmışdır (Mehdiyev, 2000, s. 265).

Bəzi mənbələrdə göstərilir ki,1942-ci ilin yayında Stalinqrad ətrafında döyüşlərdə iştirak edən M.Hüseynzadə həmin ilin avqust ayında Kaliç şəhəri yaxınlığındakı döyüşdə ağır yaralanmış və əsir düşmüşdür (Mehdiyev, 2000, s. 47). Mehdi Hüseynzadənin bacısı oğlu Mehdi Əzizbəyov iddia edirdi ki, dayısı əsir düşməyib, kəşfiyyatçı kimi almanlar tərəfə atılıb Mehdi almanlar tərəfə keçəndən sonra SSRİ ilə əlaqə saxlamayıb.

Mehdi Hüseynzadə 162-ci Türküstan diviziyasına daxil edilmişdi. Onun bacarığını görən almanlar Mehdini Potsdama 3 aylıq hərbi məktəbə göndərirlər. Bu kursdan sonra yenidən Türküstan diviziyasına təbliğat-təşviqat işinə göndərilir. (http://tarix.info/qehremanlar/627-mehdi-h252seynzad601.html).

Mehdi Hüseynzadə (Mixaylo) Ukrayna, Polşa, İtaliya və Yuqos-laviyada hərbi əsir düşərgələrində olan sovet əsirlərinin qaçmasına köməklik edir, yoldaşları ilə birlikdə Yuqoslaviya partizanlarına qoşulur. Faşist zabiti forması geyərək tez-tez almanların qərargahında olan Mehdi düşmən ordularının hərəkətlərinə dair kəşfiyyat materialları toplayır, qoşunların hərəkət planlarını öyrənərək partizanlara xəbər verirdi. Mehdi Hüseynzadə Opiçina kinoteatrı partladılarkən 80 nəfər faşist məhv olmuşdur (Kommunist qəz. 1958, 9 may; Mədətov 1965, s. 455-456). O, faşistlərə xidmət edən ‘‘İl Pikalo” qəzeti redaksiyasını və mətbəəsini, Qaritsa yaxınlığında faşistlərin 200 ton benzinlə dolu anbarını partlatmış, Qaritsa şəhərində faşist bankını talayıb, partizan dəstəsinə bir neçə milyon pul gətirmiş (Mehdiyev, 2000, s. 23). 1944-cü ilin payızında onun başçılıq etdiyi qrup partizanın Udine şəhərindəki faşist həbsxanasına hücumu nəticəsində 700 hərbi əsir, o cümlədən 147 sovet əsiri azad edilmişdi. Hüseynzadə 1944-cü il noyabr ayının 2-də düşmənlə qeyri-bərabər döyüşdə indiki Sloveniyanın Vitovle kəndində həlak olmuş (Istoriya Velikoy Otechestvennoy voyny Sovetskogo Soyuza.., s. 497), noyabrın 16-da onun cəsədi yenidən Çepovani kəndində dəfn edilmişdir (Mədətov,1965, s. 459-460).

Onun həlak olması haqqında bir neçə fərziyyə var. Ən birinci versiya Mixaylonun gizləndiyi evin partizan oğlunun danışdıqlarına əsaslanır. O, məlumat verir ki, onların evini qəfildən almanlar mühasirəyə alır. Bu zaman Mehdi Hüseynzadənin əlində 2 limonka-qranat və 5 gilizli tapança var idi. Mixaylo onlarla döyüşə girdi və atışmağa başladı. Düşmən evə soxulanda Mixaylo onların dəstəsinə 2 qranat atdı. Yaranan qarışıqlıqdan istifadə edib arxa pəncərədən tullanıb qaçmağa başladı. Onu görən almanlar təqib etməyə başladılar. Mixaylo ayaqlarını geniş aralayıb tapançasını çıxardı və öz ürəyinə atəş açdı.

Sloveniya versiyasına görə 1944-cü ilin 1 noyabrında Mixaylo və 3 sloven diversantı – İvan Suliç, Adam Zorn və Yordan Qoryan 9-cu korpusun qərargahına gedərkən Vitovlye kəndində dayanırlar. Burada və Rençe kəndində partizanların konspirativ bazarları var idi. Onlar bundan almanların nəzarətində olan ərazilərə tapşırığa gedərkən istifadə edirdilər. Hadisələrin iştirakçısı A.Zornun şahidliyinə görə 8 nəfər partizanın əvvəlcədən gəlib gizləndiyi pəyə gecə qəfildən almanlar tərəfindən mühasirəyə alınır. Mixaylo və sloveniyalı Dreykeç (əsl adı: Andrey Komel) mühasirədən çıxıb qaçmağa çalışırlar, amma avtomatdan açılan güllələrlə

vurulurlar. A. Zornun versiyasına görə həmin gecə almanlar kənddə rekvizit aksiya keçirirlər. A. Zornun özü başqa partizanla birgə almanlar tərəfindən ələ keçirilir. Qalanları isə tapılmır.

Sovet Bazovitsk batalyonunun qərargah rəisi və Mixaylonun yaxın dostu Cavad Həkimlinin dediyinə görə almanlar onları mühasirəyə alan zaman Mixaylo qaçmağa cəhd göstərərkən yaralanır və əsir düşməmək üçün özünü vurur. C. Həkimli belə güman edir ki, partizanları yerli əhalidən biri satıb.

Mehdi Hüseynzadənin nəşi yerli əhali tərəfindən dəfn edilir, sonra 18-ci sloveniya zərbəçi Bazovitsk briqadasının 2-ci rus batalyonunun partizanları tərəfindən Çenovan kəndinin qəbiristanlığında dəfn olunur. Onun qəbri üstündə taxta piramida qoyulur və ona bərkidilən dəmir lövhənin üstündə yazılır: "Burada Mehdi Hüseynov (Mixaylo) dəfn olunmuşdur... 2 XI 1944-cü ildə Vipavedə qəhrəmancasına həlak olmuşdur".

Yuqoslaviya xalq azadlıq ordusunun 9-cu korpusunun 30-cu diviziyasının komandanlığının 9 noyabr 1944-cü il məlumatına əsasən, Mehdi Hüseynzadənin həlak olduğu ərəfədə, oktyabrın 30-dan 31-nə keçən gecə almanlar öz bölmələrini Tronovsk ovalığı ətəyində partizanların nəzarəti altında olan ərazilərə hücum etmək üçün planlı şəkildə yerləşdirirlər. Alman əməliyyatı 31 oktyabrda Qoritsa-Aydovşçina yolundan qabaqcıl dəstələrin Vitovlye və Şmihel kəndlərinə tökülməsi ilə başlanır. 31 oktyabrdan 1 noyabra keçən gecə 19-cu Sloveniya briqadasının patrulu Vitovlyedən Trnovo-Lokveyə gedən yolda alman hərbçilərinin olduğunu qeydə alır. Bu zaman Vitovlyenin özünə partizanlar tərəfindən göndərilmiş patrul Müqəddəs Boqoridisa kilsəsinin yanında almanlarla toqquşur. Noyabrın 1-2-də almanlar Trnovsk ovalığının ətəklərinə girmək üçün dəfələrlə cəhd edirlər. Trnovo kəndi istiqamətində döyüşlər 6 noyabra qədər davam edir.

Şəmistan Nəzirli "Əfsanəvi Mixaylo" kitabında yazır ki, noyabrın 2-də Mehdi növbəti döyüş əməliyyatını yerinə yetirməyə getdi. Dostları və köməkçiləri Adam Zoran, İvan Tsar, Boqdan Qoryan, Jara Dorçek də onunla birlikdə idilər. Partizanların qarşısına düşmənin iri silah anbarını partlatmaq vəzifəsi qoyulmuşdu. Onlar tapşırığı müvəffəqiyyətlə yerinə yetirib, əməliyyatdan razı halda korpus qərargahına qayıdırdılar. Gecə onları yaxşı tanıdıqları Vitovl kəndində yaxaladı. Aylı bir gecə idi. Heç gündüz də bəzən belə olmur. Məsləhət oldu ki, kənddə gecələsinlər. Partizanların çoxdankı dostu Aloiz Marinçiçin həyətində tayalıqda rahatlandılar. Gecə yarısı faşistlər hiss etdirmədən evi mühasirəyə alıb tayalığı atəşə tutdular. Güllə yağışının altında Mehdi və dostları cəldliklə həyətə sıçradılar və avtomatlardan cavab atəşi açdılar. Qızğın atışma başlandı. Hüseynzadənin iki ehtiyat qumbarası vardı. Hündür boylu alman zabiti güllə ataraq onun üzərinə atılanda qumbaraların birini tullamışdı. Bir vaxt Mehdi gördü ki, iki

iri cüssəli alman Adam Zoranı yerə yıxıb. Qollarını burub hara isə aparmaq istəyirlər. Avtomatın diskində güllə qurtarmışdı, tapançasında isə cəmi 3 güllə qalırdı: ikisini Hüseynzadə bir faşist zabitinin cəmdəyinə sıxdı. Sonuncu gülləni Mehdi özü üçün saxlamağı qərarlaşdırmışdı. Qonşu evin tinində atəş bir anlığa dayanan kimi Mehdi ora cumdu. Elə bunu gözləyirmiş kimi avtomatın növbəti güllələri onun bədəninə dolmağa başladı. O dayana bilməyib yerə çökdüsə də avtomatı əlindən buraxmadı. Vitovl camaatı onu səhər tezdən tapdılar. O, böyür üstə, öz qanının içində uzanmışdı. Elə bil ayağa durub təzədən döyüşə atılmaq istəyirdi. Faşistlər onun bədənini güllə ilə deşik-deşik etmişdilər. Üç gündən sonra partizanlar faşistləri Vitovldan qovub çıxardılar. Mehdini yerli qəbiristanlıqda, kilsədən azca uzaqda hərbi şərafətlə dəfn etdilər. Dəfn mərasiminə ətraf kəndlərdən yüzlərlə adam yığışıb gəlmişdi. Bir neçə vida nitqi söyləndi, yüz avtomat və tüfəngdən yaylım atəşi açıldı. Məzarın üzərinə vurulan göstəricidə qəhrəmanın adı, familiyası, anadan olduğu il və yer yazılmışdı. Lakin partizanlar öz döyüş yoldaşlarının burada dəfn olunması ilə razılaşmır, hələ o vaxt Şempas kəndinin yerli hökuməti qarşısında Hüseynzadənin məzarını Çepovani adlanan yerə köçürmək barədə məsələ qaldırırlar. Bu kənd Novo Qoritsa şəhərinin yaxınlığında avtomobil magistralının kənarında yerləşdiyindən həmişə adamların gur olduğu bir məkan idi. Təəssüf ki, bu məsələ yalnız on altı ildən sonra həll olundu. Ləngimənin əsas səbəbi bu idi ki, Çepovanidə xatirə partizan qəbiristanlığının salınması barədə Lyublin heykəltəraşlarının əlində uzun müddət nə konsepsiya, nə də lazımi materiallar olmayıb. 1960-cı il iyul ayının əvvəllərində memorialın açılışı oldu. Bu dəfə də Çepovanidə iynə atsan yerə düşməzdi. Elə təkcə partizanlar beş yüz nəfərəcən idilər. Bu dəfə də vida nitqləri deyildi. Yaylım atəşlər açıldı. Xatirə qəbiristanlığı kəndin düz ortasında yerləşir. Hüseynzadənin məzarı sağ tərəfdə, başqa dostlarının məzarının yanındadır. Üzərində beşguşəli qırmızı ulduz obeliski ucalır. Qəbrin üstündəki dəmir lövhədə yazılmışdır: “Rahat yat, Azərbaycan xalqının qəhrəmanı, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır”.

Lakin M. Hüseynzadənin qəhrəmanlığı sovet rəhbərliyi tərəfindən vaxtında qiymətləndirilmədi. Müharibə qurtaran kimi Dövlət Təhlükəsizlik Komitəsi 1946-cı ildə olduqca təhlükəli hesab etdiyi bir “casus” haqqında material toplamağa başladı. “Casus”un axtarış işində onun 1943-1944-cü illərdə Almaniyanın Ştrans məntəqəsində yerləşən Azərbaycan Milli Legionunda təbliğat-təşviqat şöbəsində işlədiyi, legionları Hitler Almaniyasına vicdanla xidmətə çağırdığı bildirilirdi. “Casus” kimi axtarışda olan Mehdi Hüseynzadə idi.

Qeyd edək ki, 1944-cü ilin 2 aprelindən müharibənin sonuna qədər xalq azadlıq ordusunun və Sloveniya partizan dəstələrinin nəzdində sovet hərbi missiyasının qrupu fəaliyyət

göstərirdi. Ona SSRİ Xalq Müdafiə Komissarlığının Baş Kəşfiyyat Agentliyinin kadr kəşfiyyatçısı missiya rəisinin köməkçisi, diversiya-kəşfiyyat fəaliyyəti mütəxəssisi polkovnik Nikolay Kirilloviç Patraxalçev rəhbərlik edirdi. 6 iyunda daha bir BKA-nın əməkdaşı İvan Petroviç Rıbaçenkov rabitəçi Leonidovla bir araya gəldi. Rıbaçenkov və Leonidov 9-cu korpusun qərargahında möhkəmləndirildi. Onların vəzifəsi sovet hərbi köməyi çərçivəsində yüklərin qəbulunu təşkil etmək, rəqib haqqında məlumatlar yığmaq və hərbi mövzular üzrə Sloveniya komandirlərinə məsləhət vermək.

Mehdi Hüseynzadənin qrupu 9-cu korpusun ayrıca diversiya bölməsi qismində fəaliyyət göstərirdi. Bu məlumatları Qorişka bölgəsindəki 9-cu diversiya-kəşfiyyat qrupunun rəhbəri ilə (sabotazno skupino) Mehdi Hüseynzadənin kəşfiyyat qrupu arasında konspirativ kuryer əlaqəsi yaratmaq tapşırılan Simon Viçiç də təsdiq edir. Viçiç qeyd edir ki, Mehdi Hüseynzadə "… əsl kəşfiyyatçı tipi idi. Heç zaman adını demirdi. O həmişə sadəcə Mixaylo idi. Heç kəs onun haradan gəldiyini bilmirdi. O ancaq ''Çar" (Car) (İvan Suliç) ilə danışırdı. 30 oktyabr 1944-cü ildə Rençe (Renče) kəndindəki görüş zamanı M.Hüseynzadə və "Çar", sovet diversiya qrupu ilə "Çar"ın dəstəsinin birləşməsinin məqsədə-uyğunluğunu müzakirə etdilər. Bu məsələnin tam həlli üçün Sovet hərbi missiyasının razılığını və 9-cu korpus qərargahının sanksiyasını almaq tələb olunurdu.

Sloveniya xalq-azadlıq müharibəsi tədqiqatçısı Marian F. Kranç (Marijan F. Kranjc) Mehdi Hüseynzadənin qrupunun xidmətlərini analiz edərkən belə bir fərziyyə irəli sürür ki, Mehdi Hüseynzadə sovet kəşfiyyatının marağı və sovet hərbi missiyası əməkdaşlarının tapşırığı ilə işlə-yirdi. Mehdi Hüseynzadənin kəşfiyyatla əlaqəsi haqda tarixçi A. M. Sergienko da məlumat verirdi.

Mehdi Hüseynzadənin bacısı oğlu Mehdi Əzizbəyov yazırdı ki, dayısı əsir düşməyib. Kəşfiyyatçı kimi almanlar tərəfə atılıb... onun dostları danışırdılar ki, Mehdi almanlar tərəfə keçəndən sonra SSRİ ilə əlaqə saxlamayıb. Mehdi Hüseynzadə 162-ci "Türküstan" diviziyasına yazılıb. Onun bacarığını görən almanlar Mehdini Potsdama 3 aylıq hərbi məktəbə göndəriblər. Bu kursdan sonra yenidən "Türküstan" diviziyasına təbliğat-təşviqat işinə göndərilib. Başqa sözlə, əsil həqiqəti bilməyən SSRİ DTK Mehdi Hüseynzadəni "Vətən xaini" hesab edir. M.Hüseynzadənin qəhrəmanlığı sovet rəhbərliyi tərəfindən vaxtında qiymətlən-dirilmədi. SSRİ Dövlət Təhlükəsizlik Komitəsi 1946-cı ildə təhlükəli hesab etdiyi bir ''casus"-Mehdi Hüseynzadə haqqında material toplamağa başladı. ''Casusun'' axtarış işində onun 1943-1944-cü illərdə Almaniyanın Ştrans məntəqəsində yerləşən Azərbaycan Milli Legionunda təbliğat-

təşviqat şöbəsində işlədiyi, legionları Hitler Almaniyasına vicdanla xidmətə çağırdığı bildirilir (http://tarix.info/qehremanlar/627-mehdi-h252seynzad601.html)

SSRİ DTK Mehdi Hüseynzadəni ‘‘Vətən xaini" hesab edirdi. Müharibə qurtarandan 9 il sonra-1954-cü ildə Dövlət Təhlükəsizlik Nazir-liyinin baş müvəkkili, bölmə rəisi V.Banserev Mehdi ilə legionda və partizan hərəkatında iştirak edən şahidləri yenidən dindirdi (Mədətov, 1965, s. 446). Hüseynzadə haqqında olan axtarış işi 8 il çəkdi. İtaliya Kommunist Partiyasının Baş katibi Palmiro Tolyatti, Yuqoslaviya Xalq Azadlıq Hərəkatının lideri və Kommunist Partiyasının katibi Broz Tito SSRİ hökumətinə Mehdinin şücaətləri əks olunmuş sənədlər təqdim etdilər. Bütün bunlardan sonra „Casus axtarış əməliyyatı” istiqamətini dəyişdi, axtarış işi "Geroy" adlandırılırdı.

Mehdinin ölüm xəbəri 1954-cü ildə dəqiqləşdirildi. 1956-cı il mayın 31-də “Krasnaya Zvezda” qəzeti keçmiş partizan Vasili Dmitriyeviç Sokolovun xatirələrinə əsaslanaraq “Partizanın qəhrəmanlığı” adlı məqaləni dərc etdi. Bu məqalə bütövlükdə “Mixaylo” təxəllüsü ilə Yuqoslaviya və İtaliyada qəhrəmanlıq möcüzələri göstərmiş Mehdi Hüseynzadənin şücaətlərinə həsr olunmuşdu.

Qeyd edək ki, yazıçı-jurnalist Vasili Dmitriyeviç Sokolov Böyük Vətən müharibəsinin iştirakçısıdır. O, Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan və Avstriyanın faşist işğalçılarından azad olunması uğurundakı döyüşlərdə iştirak etmişdir. V. D. Sokolov Böyük Vətən müharibəsi cəbhələrində sovet döyüşçülərinin göstərdiyi qəhrəmanlığa həsr olunmuş bir sıra əsərlər yazmışdır. SSRİ Müdafiə Nazirliyinin hərbi nəşriyyatı onun 1956-cı ilin axırlarında “Qəhrəmanlar ölkəsində” adlı hekayələr məcmuəsini buraxmışdır. “Ələkeçməz partizan” hekayəsi də həmin məcmuədə dərc olunmuşdur. Hekayə Azərbaycan xalqının qəhrəman oğlu, faşistlərin arxasında aparılan partizan mübarizəsinin görkəmli iştirakçısı Mehdi Hənifə oğlu Hüseynzadəyə həsr olunub. Zabit Alekseyevin qabaq Dramaturq Yevgeni Stepanoviç Şevadzutski Krivoy-Roq şəhərində yaşayırdı. Onun əsərləri RSFSR və Ukraynanın bir sıra teatrlarında tamaşaya qoyulub.

Y. Şevadzutski də Böyük Vətən müharibəsinin iştirakçısıdır. Voronejdən Berlinədək döyüş yolu keçib. O, cəbhəyə getməzdən əvvəl Tbilisi Hərbi Piyada Məktəbində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə ilə bir qrupda oxuyub, həmyerlimizlə dostluq edib. Y.Şevadzutski M.Hüseynzadənin qəhrəmanlığından bəhs edən “Sonuncu məktub” adlı pyes yazıb. Pyesdən parçalar Ukrayna qəzetlərində “Biz beynəlmiləlçilərik” adı altında dərc edilib.

1956-cı ilin oktyabrında keçmiş partizan Q. A. Jilyayev 39 səhifəlik “Mehdi Hüseynzadə (Mixaylo) haqqında xatirələr”ini qələmə aldı və Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutuna verdi. İnstitut tərəfindən toplanmış materiallarda Mehdi Hüseynzadənin

qəhrəmanlıqlarını təsdiqləyən “İgidlik nişanı”, Yuqoslav medalı ilə təltif olunmuş sovet partizanlarının siyahısının fotosurəti, həmçinin Rus Zərbə briqadasının Yuqoslaviya ordusunun IX korpusunun qərargahına təqdim etdiyi hesabat da vardı. Bu qəhrəmanın İkinci dünya müharibəsi illərindəki şücaətləri haqqında böyük sayda materiallar əsasında İmam Mustafayev 1956-cı ilin noyabrında ilk dəfə məktubla Sov.İKP-nin MK-nə müraciət etdi. Sov. İKP-nin MK-nin göstərişi ilə Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi M.Hüseynzadənin Yuqoslaviya və İtaliya ərazisində alman-faşist işğalçılarına qarşı göstərdiyi şücaətlərini təsdiqləyən məxfi təhqiqat apardı. Müvafiq arayış 9 vərəqdə İmam Mustafayevə təqdim olundu. F.Kopılov Sov.İKP MK-ya yazırdı ki, Yuqoslaviyadakı SSRİ səfirliyi Yuqoslav səlahiyyətli orqanlarına Hüseynzadənin Yuqoslav partizan birləşməsindəki fəaliyyətini əlavə olaraq yoxlamaq və sənədləşdirmək xahişi ilə müraciət etmişdir. Təhqiqat göstərdi ki, Azərbaycan incəsənət məktəbinin məzunu olmuş, sonralar isə Leninqrad Xarici Dillər institutunda və V. İ. Lenin adına APİ-də təhsil alan Hüseynzadə 1941-ci ildə Sovet Ordusu sıralarına çağırılmışdır. 1942-ci ildə Tbilisidə piyada məktəbini bitirmiş və elə həmin ildə də Stalinqrad döyüşlərində iştirak etmişdir. 1942-ci ilin avqustunda Kalaç şəhərciyi uğrunda döyüşdə ağır yaralanmış və əsir düşmüşdür. Ukraynada, Polşada, İtaliyada, Yuqoslaviyada hərbi əsirlər üçün düşərgələrdə olmuşdur. 1944-cü ildə İtaliyanın Udineze şəhərində onun rəhbərliyi altında keçirilmiş əməliyyat nəticəsində 700 hərbi əsir, o cümlədən 147 sovet əsgəri və zabiti azad edilmişdir. DTK-nın arayışı və yeni sənədlərə əsaslanaraq İmam Mustafayev 1957-ci ilin 15 yanvarında təkrarən Sov.İKP MK-ya müraciət etdi. Nəhayət ki, onun cəhdləri uğurla yekunlaşdı. Yuqoslaviyadan əlavə sənədlər alındıqdan sonra 1957-ci ilin 11 aprelində Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi**.** Respublika komsomolunun lideri Nazim Hacıyevin təşəbbüsü ilə yazıçılar İ.Qasımova və H.Seyidbəyliyə qəhrəman-partizana həsr olunmuş bədii əsər yazılması tapşırıldı. Onların “Uzaq sahillərdə” povesti oxucular arasında böyük uğur qazandı. 1958-ci ildə isə “Azərbaycanfilm” kinostudiyasında ekranlaşdırıldı.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 11 aprel tarixli fərmanı ilə Mehdi Hüseynzadə ölümündən 13 il sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü (Pravda, 1957, 12 aprelya).

## Nəticə

II Dünya müharibəsi öz miqyasına, gərginliyinə və silahlı mübarizənin nəhəngliyinə, habelə iştirakçı dövlətlərin sayına görə bəşəriyyət tarixində misli-bərabəri yoxdur. Azərbaycandan olan on minlərlə döyüşçü hitlerçi işğalçılarla vuruşmalarda rəşadət və qəhrəmanlıq göstərdiklərinə görə SSRİ-nin orden və medalları iİə təltif olundu. Faşizmə qarşı

mübarizədə 121 nəfər Azərbaycan SSR vətəndaşı (onlardan 43 nəfəri azərbaycanlı idi) Sovet İttifaqı Qəhrəmanı adına, Həzi Aslanov bu ada iki dəfə (1942 və 1991) layiq görüldü, 30 nəfər ‘‘Şöhrət’’ ordeninin tam üç dərəcəsinin kavaleri oldu.

**Ədəbiyyat**

(1957, 12 aprelya), *Pravda.*

(1958, 9 may), *Kommunist qəzeti.*

(1992, 30 may). *Sabah qəzeti.*

(1993, 20 iyul), *Azərbaycan müəlimi qəzeti.* s. 3.

(2014, 11 aprel), *Şərq qəzeti,* s. 11.

Abutalybov, R. (2007). *Eto put', eto put'.* Grif i.

*Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları.* (1963). Azərbaycan Dövlət Nəşriyyatı.

Balev, A. (2009). *Mamed Emin Rasulzade (1884-1955).* Flinta.

Drobyazko, S. I. (1999*). Vtoraya mirovaya voyna 1939-1945 gg.* Vostochnyye legiony i kazach'i chasti v Vermakhte M. AST.

Dzhakhannuri (Gashimova), F. (2010). *Zhertvy stalinskikh repressiy v Azerbaydzhane.* Baku.

Əmrahov, M. İ. (2009). *XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı.* Ali məktəblər üçün dərslik. ADPU-nun nəşriyyatı.

Fayql, E. (2009). *İpək yolu üzərində Odlar Yurdu Azərbaycan tarixi.* ( layihənin rəh. E. Mahmudov, Y. M. Mahmudov). (alman dilindən tərc. E. Niftəliyev, N. Xıdırov, C. Səfərov). (elmi red. F. Vahabov, K. K. Şükürov). (red. D. İsmayılov, T. Nuriyeva). Bakı.

Həsənli, C. (2015). *İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945).* Yazıçı nəşriyyatı.

*Istoriya Velikoy Otechestvennoy voyny Sovetskogo Soyuza (1941-1945 gg.).* (1945). na 6 t.M. Voyenizdat, 1960-1966. T.5.

İbrahimli, X. C. (2012). Azərbaycan mühacirəti tarixi. Elm və təhsil.

İsmayıl, Ə. (1951). *İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə.* Hoover Institution Archives, Stanford, USA. Collection A. Dallin, Box 6, Folder, 6, 4.

Mamuliya G. (2012). *Bor'ba za svobodu i nezavisimost' Kavkaza (1921-1945).* Tbilisi-Parizh.

Mədətov, Q. Ə. (1965). *Azərbaycan Böyük Vətən müharibəsi illərində 1941-1945.*Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı.

Medinskiy V. R. (2014). *Voyna. Mify SSSR. 1939-1945. Vtoroye izdaniye*. M. Ne bud'te media-gruppoy.

*Mehdi Hüseynzadə haqqında (Fətəliyev Əvəz).* (1957). Uşaqgənc-nəşr.

Mehdiyev, B. M. (2000). *223-cü Qırmızı bayraqlı Belqrad atıcı diviziyası*. Respublika Xatirə Kitabı Nəşriyyatı.

Rəfili, O. *Reyxstaqda düşbərə.* (2002, 26 dekabr), *Bəhdəd qəzeti.*

*Voyna i obshchestvo 1941-1945 v dvukh knigakh.* (2004). (Otv. red. G. N. Sevost'yanov). Ins-t rossiyskoy istorii. Nauka, knn 2.

Yaqublu, N. (2005). *Azərbaycan legionerləri.* Çıraq.

http://tarix.info/qehremanlar/627-mehdi-h252seynzad601.html